**SECRETARIAT / SECRÉTARIAT**

SECRETARIAT OF THE COMMITTEE OF MINISTERS
SECRÉTARIAT DU COMITÉ DES MINISTRES

COMMITTEE OF MINISTERS
COMITÉ DES MINISTRES

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

*Contact: Zoë Bryanston-Cross*
*Tel: 03.90.21.59.62*

**Date**: 13/09/2021

**DH-DD(2021)904**

Documents distributed at the request of a Representative shall be under the sole responsibility of the said Representative, without prejudice to the legal or political position of the Committee of Ministers.

Meeting: 1411th meeting (September 2021) (DH)

Communication from the authorities (13/09/2021) in the case of Namazov group v. Azerbaijan (Application No. 74354/13).

Information made available under Rule 8.2a of the Rules of the Committee of Ministers for the supervision of the execution of judgments and of the terms of friendly settlements.

* ** * * * * * * * *

Les documents distribués à la demande d'un/e Représentant/e le sont sous la seule responsabilité dudit/de ladite Représentant/e, sans préjuger de la position juridique ou politique du Comité des Ministres.

Réunion : 1411e réunion (septembre 2021) (DH)

Communication des autorités (13/09/2021) relative à l'affaire groupe Namazov c. Azerbaïdjan (requête n° 74354/13) ***[anglais uniquement]***

Informations mises à disposition en vertu de la Règle 8.2a des Règles du Comité des Ministres pour la surveillance de l'exécution des arrêts et des termes des règlements amiables.

# Namazov qrupu Azərbaycana qarşı (Ərizə No. 74354/13)

DGI 13
SEP. 2021
SERVICE DE L'EXECUTION DES ARRETS DE LA CEDH

| Ərizə | İş | Qərarın qəbulu | Qəti olduğu tarix |
|---|---|---|---|
| 74354/13 | NAMAZOV | 30/01/2020 | 30/05/2020 |
| 18498/15 | ASLAN ISMAYILOV | 12/03/2020 | 12/07/2020 |
| 81024/12 | BAGIROV | 25/06/2020 | 25/09/2020 |

***Fərdi tədbirlər***

***Namazov işində*** Məhkəmə, ərizəçinin qarşıya qoyulan qanuni məqsədə qeyri-adekvat olaraq, kollegiyadan uzaqlaşdırlmasına görə, şəxsi həyatın toxunulmazlığı hüququnun (Maddə 8) pozulmasına, ərizəçiyə mənəvi zərərə əvəzi 7000 avro, xərc və məsrəflərə görə 850 **avro** ödənilməsinə qərar verib.

Məhkəmə kollegiyadan uzaqlaşdırlması səbəbindən ərizəçinin şəxsi həyatın toxunulmazlığı hüququna müdaxiləni dəyərləndirərkən, bu müdaxilənin Konvensiyanın 8.2-ci maddəinin işığında "hüquq uyğun" olaraq dəyərləndirilib-dəyərləndirilməyəcəyi sualını açıq buraxıb və müdaxilənin "iğtişaşların qarşısının alınması" qanuni məqsəd güdüb-güdmədiyini dəyərləndirmişdir.

29 iyun 2020-ci il tarixdə ərizəçiyə 7850 avro məbləğində təzminat ödənilib. Məhkəmənin qərarı Azərbaycan dilinə tərcümə edilib və Azərbaycan Vəkillər Kollegiyasına və əlaqəli dövlət qurumlarına göndərilib.

***Aslan Ismayılov işində,*** Məhkəmə, yerli məhkəmələrin Konvensiyanın 6§1-ci maddəsi çərçivəsindəki öhdəlikləri yerinə yetirməməsi əsası ilə, ərizəçinin ədalətli məhkəmə araşdırmnası hüququna (Maddə 6) müdaxilənin baş verməsi qərarına gəlib.

Məhkəmə həmçinin, ərizəçinin iddia etdiyi kimi onun kollegiyadan xaric edilməsinin ifadə azadlığı hüququndan istifadə etməsinin bir nəticəsi olmasına dair hər hansı dəlilin möcud olmamasını qiymətləndirirək, ərizəçinin ədalətli əvəz tələbini də rədd edib.

Məhkəmənin qərarı Azərbaycan dilinə tərcümə edilib və Azərbaycan Vəkillər Kollegiyasına və əlaqəli dövlət qurumlarına göndərilib. Həyata keçirilməsi zəruri olan fərdi tədbirlərin çərçivəsinin incələnməsi üçün Aslan Ismayılov işi Azərbaycan Respublikası Ali Məhkəməsində yenidən baxışa açıldı.

***Bağırovun işində*** Məhkəmə, ərizəçinin qanunda nəzərdə tutulmayan şəkildə vəkillik peşə fəaliyyətindən kənarlaşdırılması və qarşıya qoyulan qanuni məqsədə qeyri-mütənasib olaraq Vəkillər Kollegiyasından xaric edilməsinə görə şəxsi həyata hörmət (Maddə 8) və ifadə azadlığı hüquqlarının (Maddə 10) pozulduğunu müəyyən edib. Məhkəmə maddi və mənəvi zərərə görə ərizəçiyə 18 000 avro məbləğində təzminat təyin edib.

Məhkəmə *restitutio in integrum* nail olmaq üçün mövcud vasitələrin müxtəlifliyini və aidiyyəti olan məsələlərin xarakterini nəzərə alaraq, cavabdeh dövlətin təqdim etdiyi məlumatlara söykənərək, ərizəçinin durumunun inkişafına, başqa tədbirlərlə yanaşı, peşə fəaliyyətini əvvəlki halına qaytarmağı hədəfləyən tədbirlərin həyata keçirilməsinə nəzarət vəzifəsini Nazirlər Komitəsinə həvalə edib.

Məhkəmə tərəfindən müəyyən edilmiş ədalətli kompensasiya, ona edilən əlavə faizlərlə birlikdə 3 noyabr - 17 dekabr 2020-ci il tarixləri arasında üç hissədə, ümumilikdə, 18.087,62 avro məbləğində ərizəçiyə ödənilib. Məhkəmənin qərarı tərcümə edilərək Azərbaycan Respublikası Vəkillər Kollegiyasına və *restitutio in integrum* əldə etmək üçün gərəkli olan digər fərdi və ümumi tədbirlərin müəyyən edilməsi üçün aidiyyəti dövlət orqanlarına göndərilib.

Ərizəçinin Vəkillər Kollegiyasından xaric edilməsi və peşə fəaliyyətindən məhrum olunması səbəbindən, onun ifadə azadlığı və şəxsi həyata hörmət hüququna müdaxiləni qiymətləndirərkən Məhkəmə, Azərbaycan Respublikasının “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanununun müvafiq müddəalarını qanunun keyfiyyəti baxımından incələməyi gərəkli hesab etməyib.

1999-cu ildə qəbul edilmiş “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa 2004-2020-ci illərdə vəkillərin daha yaxşı müdafiəsi və vəkillik fəaliyyətinin daha səmərəli tənzimlənməsi məqsədi ilə bir neçə dəfə dəyiş.iklik eidlib.

2004-cü ildə qanuna edilmiş dəyişiklik Rəyasət Heyətini vəkilləri Vəkillər Kollegiyasının üzvlüyündən xaric etmək səlahiyyətindən məhrum edir və vəkillərin kollegiyadan xaric edilməsinin yalnız çəkişməli proses nəticəsində verilmiş məhkəmə qərarına əsasən həyata keçirilməsini nəzərdə tutur. Vəkillərin Azərbaycan Vəkillər Kollegiyasından xaric edilməsi, yalnız müstəsna hallarda tətbiq edilən qeyri-adi sanksiya hesab olunur.

Vəkillərin davranış keyfiyyətinin və standartlarının təkmilləşdirilməsi məqsədilə 28 dekabr 2020-ci il tarixdə Azərbaycan Vəkillər Kollegiyası tərəfindən Vəkillərin Davranış Qaydası qəbul edilib.

### *Ümumi tədbirlər*

Səlahiyyətlilər, Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən son 3 ildə Azərbaycanda vəkilliyin inkişafı və islahatları ilə bağlı hazırlanmış aşağıdakı məlumatları təqdim edir.

### Azərbaycan Vəkillər Kollegiyasına qəbul

2005-ci ilə qədər Azərbaycan Vəkillər Kollegiyasının 370, 2018-ci ilə qədər isə 840 üzvü var idi. 2018-ci ildən Azərbaycan Vəkillər Kollegiyası ölkədə vəkillərin sayının artırılması istiqamətində geniş miqyaslı işlərə başlayıb.

2018-ci ildə vəkilliyə qəbulla bağlı iki yazılı sınaq imtahanı keçirilib və vəkillərin sayı 931 nəfərdən 1503 nəfərə yüksəlib.

2019-cu ildə 3 yazılı test imtahanı elektron qaydada aparılıb və vəkillərin sayı 1503-dən 1708-ə yüksəlib.

2020-ci ildə vəkilliyə bir qəbul imtahanı keçirilib, həmçinin Vəkilliyin İxtisas Komissiyası tərəfindən namizədlərlə ilk onlayn şifahi müsahibə keçirilib və vəkillərin sayı 1708-dən 1844-ə yüksəlib.

Bu qeyd edilənlər, 2017-ci ilin müvafiq rəqəmləri ilə müqayisədə vəkillərin sayında 100% artım kimi başa düşülməlidir.

Vəkillər kollegiyasına test sınaq imtahanları ilə qəbula 2004-cü ildə başlanılıb. 2004-2018-ci illərdə (14 il müddətinə) vəkillərin sayı 600-dən 931 nəfərə qədər artmışdı. 2018-2021-ci illərdə isə (3 il müddətinə) vəkillərin sayı 913-dən 2025-ə qədər yüksəldi.

Bununla yanaşı qeyd edilməlidir ki, qadın vəkillərin sayı, eləcə də regionlarda çalışan vəkillərin sayı xeyli artıb. Bundan başqa, vəkillik ofislərinin (vəkillik bürosunun) sayı 39-dan 110-a çatıb, onların bir çoxu son illərdə əsaslı təmir olunaraq, tam bərpa olunub.

Son 3 il ərzində ümumilikdə 7 imtahan keçirilib və bu imtahanlarda iştirak etmək üçün 2975 namizəd müraciət edib. Hazırda 305 namizəd kollegiyanın üzvü olmaq üçün 2 oktyabr 2021-ci il tarixində keçiriləcək sınaq imtahanını gözləyir.

Dövlət İmtahan Mərkəzində vəkilliyə namizədlərdən ərizələrin qəbulu mütəmadi olaraq həyata keçirilir və yazılı test sınaq imtahanları elektron qaydada həyata keçirilir. Qəbul prosesi şəffaf həyata keçirilir, BMT, GİZ, Avropa Şurası və ABŞ səfirliyi qurum və beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müşahidə aparılır.

Vəkillər Kollegiyası son 3 ildə vəkillərin sayında 100%-dən çox artıma nail olub. Bütün namizədlərin imtahandan keçid səviyyəsi 60% təşkil edib. İndiyədək yalnız 11 namizəd imtahanın nəticələri ilə razlaşmadıqlarına görə, məhkəmələrə müraciət ediblər.

Vəkillərin İxtisas Komissiyası 5-i vəkil, 3-ü alim, 3-ü hakim olmaqla, 11 nəfərdən ibarətdir. Komissiyada təmsil olunan vəkillərin sayının çox olması imtahan prosesinin yüksək keyfiyyətlə aparılmasını təmin edir.

Ədliyyə Nazirliyi yanında Ədliyyə Akademiyasında icbari təlimlər Vəkillər kollegiyasına qəbulun ayrılmaz tərkib hissələrindən biridir. Ədliyyə Akademiyası vəkillərin müstəqilliyinə heç bir xələl gətirmədən, təlimlərin keçirilmə yerini və maddi-texniki dəstəyi təmin edir. Bu təlimlər əsasən, peşəkar vəkillər tərəfindən aparılır. Təlimdən sonra vəkillər biliklərin qiymətləndirilməsi imtahanından keçməlidilər. Həmin imtahan komissiyasında Azərbaycan Vəkillər Kollegiyasının nümayəndəsi iştirak edir.

Bundan əlavə, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), Beynəlxalq Qızıl Xaç Komitəsi, BMT-nin ixtisaslaşmış qurumları və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində 3 il ərzində 705-dən çox vəkil təlimlərdə iştirak ediblər. Eyni zamanda, Vəkillər Kollegiyasının 2020-ci ilin əvvəlindən fəaliyyətə başlayan Hüquqi Yardım və Tədris Mərkəzi həm canlı, həm də onlayn rejimdə təlimlər təşkil edir.

Bu yaxınlarda, 2021-ci ilin yayında “İnsan Hüquqlarının və Əsas Azadlıqlarının Müdafiəsi Konvensiyasına və Avropa Məhkəməsinə çıxış” mövzusunda HELP ((İnsan Hüquqlarının Öyrənilməsi üzrə Avropa Proqramı) proqramı çərçivəsində Avropa Şurası, Azərbaycan Respublikası Ali Məhkəməsi və Vəkillər Kollegiyası tərəfindən birgə təlim uğurla keçirili.

Eyni zamanda Böyük Britaniyanın Hüquq Cəmiyyəti ilə əldə edilmiş razılaşmaya əsasən, Azərbaycan Vəkillər Kollegiyasının üzvləri artıq İngiltərə və Uelsdə vəkillik və hüquq praktikasına yiyələnə biləcəklər.

**Dövlət hesabına hüquqi yardım**

2020-ci ildə Vəkillər Kollegiyasının vəzifələrinin əhatə dairəsi artırılıb. “Məhkəmə sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 03.04.2019-cu il tarixli Sərəncamında 2020-ci ilin dövlət büdcəsində hüquqi yardım üçün vəsaitin müvafiq İcra Hakimiyyəti vasitəsilə ötürülməsi deyil, birbaşa Vəkillər Kollegiyasına ayrılması nəzərdə tutulub.

Bunun ardınca, 2020-ci ildə 21 913 qərar icra edilib və bu qərarların icrasına ümumilikdə 2 664 167 manat vəsait xərclənib. Bu vəsait dövlət büdcəsindən bu məqsədlə ayrılan vəsaitin 48 faizini təşkil edib. Həmin qərarların icra faizi 100 faiz təşkil edib (cari il ərzində Vəkillər Kollegiyası tərəfindən 88 hesab-faktura icra olunub. Bu, dövlət büdcəsindən maliyyələşmənin əvvəlki illərlə müqayisədə icra əmsalının təxminən 3,6 dəfə yüksək olduğunu göstərir).

O da qeyd olunmalıdır ki, “Vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 22.02.2018-ci il tarixli Sərəncamına uyğun olaraq, dövlət hesabına göstərilən hüquqi yardıma görə ödəniş 3 dəfə artırılıb.

Son 3 ildə Vəkillər Kollegiyası həm Azərbaycanın paytaxtında, həm də regionlarda 23 mindən çox aztəminatlı şəxsə pulsuz hüquqi yardım göstərib.

**Pandemiya dövründə hüquqi yardım**

COVİD pandemiyası ilə əlaqədar tətbiq edilən karantin dövründə (iyul, dekabr, 2020-ci il və yanvar 2021-ci il) bütün vəkillər üzvlük haqqı ödəməkdən azad ediliblər. Bundan başqa, yaşı 60 və yuxarı olan vəkillər 2020-ci il martın 24-dən iyunun 1-dək üzvlük haqqının ödənilməsindən azad ediliblər.

Azərbaycan Respublikasının Nazirlər Kabineti, Vəkillər Kollegiyasının müraciəti əsasında ölkədə insan hüquq və azadlıqlarının peşəkar vəkillər tərəfindən müdafiəsini təmin etmək məqsədilə vəkillərin ölkədə sərbəst hərəkətinə imkan verən qərar qəbul edib.

Vəkillər Kollegiyasının “Hüquqi Yardım və Tədris Mərkəzi” koronavirus infeksiyasının birbaşa təmas yolu ilə yayılmasının qarşısının alınması məqsədilə vətəndaşlara pulsuz onlayn hüquqi yardım göstərilməsini təşkil edib.

Bundan başqa, koronavirus və digər xəstəliklərdən əziyyət çəkən 6 vəkil Vəkilliyin İnkişafı Fondundan maliyyə dəstəyi alıb.

Ümumilikdə, analıq məzuniyyəti və təhsili ilə əlaqədar, 136 vəkil üzvlük haqlarının ödənilməsindən azad edilib.

**Beynəlxalq əməkdaşlıq**

Vəkillər Kollegiyası aşkarlıq və şəffaflığa əsaslanaraq, 2018-ci ildən başlayaraq bir sıra beynəlxalq təşkilatlar və tərəfdaşlarla fəal əməkdaşlıq edir.

Vəkillər Kollegiyası BMT-nin ixtisaslaşmış qurumları, Beynəlxalq Miqrasiya Təşkilatı, İnsan Hüquqları və Uşaq Hüquqları üzrə Müvəkkillər, Avropa Vəkillər Kollegiyası və Hüquq Cəmiyyətləri Şurası (CCBE), Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ), Avropa Şurası, Avropa İttifaqı və Dünya Bankı ilə əlaqələrini gücləndirib.

2018 və 2019-cu illər ərzində Vəkillər Kollegiyasının İdarə Heyəti üzvləri Çin, Polşa, Rusiya, Türkiyə, Avstriya, Belarus, Gürcüstan, Qazaxıstan və digər ölkələrdə keçirilən hüquqi məzmunlu konfranslarda iştirak ediblər.

2020-ci ildə vəkillər həmçinin, CCBE, Almaniya Federal Vəkillər Kollegiyası, Qazaxıstan Vəkillər Kollegiyası, Beynəlxalq Vəkillər Kollegiyası (UIA), Asiya və Sakit Okean Hüquq Assosiasiyası (LAWASIA) tərəfindən təşkil edilən onlayn konfranslarda iştirak ediblər. Azərbaycan Vəkillər Kollegiyası UIA və LAWASIA-nın üzvlüyünə seçilib.

Bunlardan əlavə, vəkillik sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla (CCBE, ICJ) səmərəli əməkdaşlıq əlaqələri qurulub və bu təşkilatların tövsiyələri ilə “Vəkillərin Davranış Qaydaları haqqında Nizamnamə”yə bir sıra əlavə və dəyişikliklər edilib.

Bakıda Azərbaycan vəkilliyinin 100 illiyinə həsr olunmuş silsilə beynəlxalq tədbirlər təşkil olunub. Həmin tədbirlərdə 20-dən çox ölkədən olan vəkillər kollegiyalarının rəhbərləri və üzvləri, Birləşmiş Millətlər Təşkilatının və digər beynəlxalq təşkilatların və tərəfdaşların nümayəndələri də daxil olmaqla 200-dən çox xarici nümayəndə iştirak edib.

**Gənclər arasında hüquq peşəsinə marağın artırılması**

Vəkillər Kollegiyası ilə ELSA (Avropa Hüquq Tələbələri Assosiasiyası) arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən, Vəkillər Kollegiyasının dəstəyi ilə birgə layihələr, konfranslar, dəyirmi masalar, seminarlar, müzakirələr, məhkəmə müsabiqələri, yay və qış hüquq məktəbləri keçirilib. Eləcə də ELSA üzvlərinə istənilən vaxt yerli hüquq bürolarına müraciət etməklə təcrübə keçmək imkanı yaradılıb.

Azərbaycanda ardıcıl olaraq 2 il Filip C. Jessup Beynəlxalq Çəkişmə Məhkəmə Müsabiqəsi (Philip C. Jessup International Moot Court Competition) üçün maliyyə və media dəstəyi göstərilib. Həmçinin, qaliblərin ABŞ-da növbəti turlarda iştirakına şərait yaradılıb.

Vyanada keçirilən 26-cı Beynəlxalq Kommersiya Arbitraj Müsabiqəsində (26th Willem C. Vis Moot) Azərbaycanı təmsil edən komandanın yol xərcləri qarşılanıb.

Bundan əlavə, yerli tələbələrin tədbirlərinə müxtəlif formada dəstək verilib. Bu il üçün “Vəkillər Kollegiyasının Könüllüləri” layihəsinin və bir çox digər layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

**Hüquq islahatlarına dəstək**

Azərbaycan Respublikası Prezidentinin “Məhkəmə sistemində islahatların dərinləşdirilməsi haqqında” 03.04.2019-cu il tarixli Fərmanının icrasına töhfə vermək məqsədilə Vəkillər Kollegiyası tərəfindən mülki və cinayət hüququ məsələləri üzrə 2 işçi qrup yaradılıb. Qrupların hər biri geniş təkliflər paketi hazırlayaraq, aidiyyəti dövlət orqanlarına göndərib.

O cümlədən, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” qanuna bir çox dəyişikliklər edilib. Həmçinin, “Məhkəmə ekspertizası haqqında” qanuna edilən dəyişikliyə əsasən, fiziki və ya hüquqi şəxsləri təmsil edən vəkillər məhkəmə ekspertizasının təyin edilməsi üçün məhkəmə ekspertizası orqanlarına və ya özəl məhkəmə ekspertlərinə rəsmi müraciət etmək hüququna malikdirlər.

2019-cu ilin əvvəlindən Vəkillər Kollegiyası “Xalq üçün Prodemos” ("Prodemos For the People") layihəsinə start verib. Bu layihənin əsas məqsədi vətəndaşlara milli qanunvericiliyə edilən mühüm dəyişikliklərin məzmununu və məqsədlərini izah etmək, hüquqi yardıma ehtiyacı olan şəxslərə dəstək olmaq, habelə, vəkillərin vətəndaşlarla həftəlik canlı görüşlərini təşkil etməkdir.

## Rəqəmsal innovasiyaların vəkillikdə tətbiqi – elektron xidmətlərin göstərilməsi

Vəkillər Kollegiyasının internet saytında vətəndaşların hüquqi yardıma əlçatanlığını təmin etmək məqsədilə bütün vəkillik bürolarının və vəkillərin onlayn reyestri yaradılıb. Bundan əlavə, hər bir vəkil üçün elektron kabinet (şəxsi kabinet) yaradılıb və Kollegiyanın rəsmi sənədləri və vəkillərə aid sənədlər bu bölmədə yerləşdirilib.

Bundan başqa, vəkillər elektron məhkəmə informasiya sisteminə inteqrasiya edə, iddialarını məhkəmələrə elektron qaydada təqdim edə, işlərdən SMS və elektron poçt vasitəsilə məlumat ala, hər bir vəkil üçün yaradılmış "şəxsi kabinet" vasitəsilə məhkəmə sənədlərini elektron qaydada əldə edə bilərlər.

2020-ci ildə pandemiya ilə əlaqədar olaraq "LegalAid" mobil tətbiqi hazırlanaraq, vətəndaşların istifadəsinə verilib.

Kollegiya vəkil sorğularının elektron formada əldə edilməsi üçün "Elektron Hökumətin İnkişafı Mərkəzi" ilə iş aparır. Bundan başqa, elektron platformalarda "Elektron Vəkil Orderi" və "Davamlı Təhsil" yaxın vaxtlarda vəkillərin istifadəsinə veriləcək.

## Sosial fəaliyyətlər və müsabiqələr

Vəkillərin qocalar və uşaq evlərinə baş çəkmələri və ətraf mühitin mühafizəsi ilə bağlı aksiyalarda, həmçinin idman və elmi fəaliyyətlər üzrə çoxsaylı yarışlarda, o cümlədən beynəlxalq və yerli futbol və şahmat turnirlərində, incəsənət, ədəbiyyat müsabiqələrində iştirakı mütəmadi olaraq təşkil olunur.

## Digər məsələlər

Vəkillər dövlət qurumlarında bürokratik maneələrlə qarşılaşdıqda, onlara dərhal cavab verən və problemli məsələlərin həllinə dəstək verən Vəkillər Kollegiyası ilə əlaqə saxlaya bilirlər.

Vəkillərin sayının artmasına baxmayaraq, vəkillərə qarşı intizam tənbehi tədbirlərinin tətbiq olunması işlərinin sayı azalıb. Kollegiya bir çox hallarda dövlət orqanlarının müraciətləri əsasında vəkillərə qarşı intizam icraatı başlatmayıb və bu müraciətləri Vəkillərin İntizam Komissiyasına göndərməyib. Nəticədə hüquq-mühafizə orqanlarından vəkillərə qarşı daxil olan müraciət və şikayətlərin 40%-i ümumiyyətlə Kollegiya tərəfindən baxışa qəbul edilməyib. Ümumilikdə, daxil olan şikayət və müraciətlərin 81 faizində intizam tənbeh tədbirləri tətbiq olunmayıb.

Vəkillər ayrı-seçkilik olmadan fəaliyyət göstərir və hüquqlarından istifadə edir. Vəkillərin siyasi fəaliyyətinə, mənsubiyyətinə və baxışlarına görə təzyiq və ya ayrı-seçkilik halları qeydə alınmayıb.

Vəkillər Kollegiyasının fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı vəkillərin rəy və təklifləri hər zaman nəzərə alınır və ixtisaslarından asılı olaraq, vəkillər maarifləndirici

fəaliyyətlərə, innovativ layihələrə, habelə, qanunvericiliyin təkmilləşdirilməsi prosesində iştiraka cəlb olunurlar.